# Milli Musiqi Günündə tamaşaçıları «Ər və arvad» qarşılayacaq

16 Avgust 2014

Azərbaycan peşəkar teatr kollektivləri yay istirahətindən (bəziləri isə qastrol səfərlərindən sonra) sevimli paytaxt tamaşaçıları ilə görüşə ciddi hazırlaşıb.
Azərbaycan Dövlət Musiqili Teatrı yeni mövsümü sentyabrın 18-də - Milli Musiqi Günündə açacaq. Dahi Üzeyir bəy Hacıbəylinin doğum günündə kollektiv öz sevimli tamaşaçılarını bəstəkarın "Ər və arvad" musiqili komediyası ilə salamlayacaq.
Tamaşanın quruluşçu rejissoru Yusif Əkbərov, quruluşçu dirijoru əməkdar incəsənət xadimi Nazim Hacıbəyovdur. Musiqili komediyada baş rolları xalq artistləri Afaq Bəşirqızı ilə İlham Namiq Kamal ifa edəcəklər.